**Azərbaycan Respublikası**
**Mədəniyyət Nazirliyi Kollegiyasının**
**8 noyabr 2018-ci il tarixli 6/1 nömrəli**
**qərarı ilə təsdiq edilmişdir.**

# Respublikanın bölgələrində fəaliyyət göstərən Dövlət Rəsm Qalereyalarının Nümunəvi Əsasnaməsi

## 1.Ümumi müddəalar

1.1. Respublikanın bölgələrində fəaliyyət göstərən Dövlət rəsm qalereyası (bundan sonra «Qalereya») maddi mədəniyyət abidələrinin komplektləşdirilməsi, mühafizəsi, öyrənilməsi, kütləvi nümayişinin və təbliğinin həyata keçirildiyi mədəniyyət, elmi tədqiqat müəssisəsidir.
1.2. Qalereya öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının Qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin (bundan sonra-Nazirlik) əmr, sərəncam, qərar və kollegiya qərarlarını, regional mədəniyyət idarəsinin (bundan sonra "İdarə") əmr və sərəncamlarını, habelə bu Əsasnaməni rəhbər tutur.
1.3. Qalereyanın əmlakı bədii mühafizə fondundan, texniki avadanlıqlardan və ona məxsus inventarlardan ibarətdir. Qalereyanın bədii mühafizə fondunun qeydiyyatı, elmi cəhətdən işlənməsi, qorunması və bərpası mövcud təlimatlar əsasında həyata keçirilir. Fondun komplektləşdirilməsi Nazirliyin Təsviri sənət əsərlərinin Satınalma Komissiyası və İdarə tərəfindən əsərlərin sifarişi, alınması, rəssamların və ayrı-ayrı şəxslərin hədiyyəsi yolu ilə həyata keçirilir.
1.4. Qalereya Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyindədir, onun möhürü, künc ştampı vardır. Qalereyanın fəaliyyətinə birbaşa nəzarəti İdarə həyata keçirir.

## 2. Qalereyanın fəaliyyət istiqamətləri

2.1.0. Qalereyanın fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. maddi mədəniyyət abidələrinin komplektləşdirilməsi, mühafizəsi, öyrənilməsi, kütləvi nümayişi və təbliği;

2.1.2 elmi, mədəni, mənəvi və estetik tələbatın ödənilməsi məqsədi ilə insan, onun fəaliyyəti və yaşayış mühiti haqqında mədəniyyət sərvətlərinin və maddi nümunələrin əldə edilməsi;

2.1.3. Qalereyanın öz fondunda olan mədəni sərvətlərin elmi cəhətdən tədqiq olunması, sistemləşdirilməsi, elektron kataloqlaşdırılması və qeydiyyatının aparılması;

2.1.4. mədəni sərvətlərin bərpası;

2.1.5. təsviri və dekorativ-tətbiqi sənət elmi istiqamətləri üzrə elmi-tədqiqat işlərinin həyata keçirilməsi;

2.1.6. Qalereya Azərbaycanın mədəni irsinin qorunub saxlanılması və yenidən bərpası, milli incəsənətin zəngin ənənələrinə əsaslanan mədəni-estetik formaların axtarışı formalaşdırılmasınna yönəlik tədbirlərin görülməsini həyata keçirir.

## 3. Qalereyanın vəzifələri

3.1. Qalereya bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. mədəni sərvətlərin dərindən öyrənilməsini və tədqiqini təşkil etmək, həmin sahələrdə materialların əldə edilməsi, toplanılması, kataloqlaşdırılması, fondlarda qorunub saxlanılması, dərc edilməsi və nümayiş olunmasını təmin etmək;

3.1.2. Azərbaycanın mədəni irsini, təsviri sənətini geniş təbliğ etmək və bu istiqamətdə tədbirlər həyata keçirmək;

3.1.3. Azərbaycan təsviri və dekorativ-tətbiqi sənətləri sahələrinin qorunması, bərpası və inkişaf etdirilməsini təmin etmək üçün tədbirlər görmək və təkliflər hazırlamaq;

3.1.4. Qalereyanın maddi vəsaitlərinin uçotunu təşkil etmək, onların istifadəsinə nəzarət etmək, Qalereyanın fəaliyyətinin səmərəliliyini artırmaq üçün müvafiq tədbirlər görmək;

3.1.5. kolleksiyalar, arxiv, kitabxana və digər materiallar əsasında elmi tədqiqatlar aparmaq;

3.1.6. Ekspozisiyalar qurmaq və sərgilər təşkil etmək, qalereya sahəsində dizayn və tərtibat işləri hazırlamaq;

3.1.7. mədəni sərvətlərin kolleksiyalarının kataloqlarının hazırlanması və nəşr olunmasını təmin etmək;

3.1.8. qanunvericiliyə uyğun olaraq dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.1.9. Qalereyada olan arxiv sənədlərinin müəyyən olunmuş qaydada saxlanılmasını və mühafizəsini təmin etmək;

3.1.10. Qalereyanın fəaliyyət istiqamətlərinə aid olan məsələlər üzrə dövlət orqanları, idarə və təşkilatları, habelə beynəlxalq təşkilatlar, o cümlədən hüquqi və fiziki şəxslər tərəfindən həyata keçirilən fəaliyyəti əlaqələndirmək;

3.1.11. Qalereyanın sərəncamında olan dövlət əmlakını fəaliyyət istiqamətlərinə uyğun olaraq müstəqil surətdə istifadə etmək;

## 4. Qalereyanın hüquqları

4.1. Qalereya öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. Qalereyanın fəaliyyət istiqamətlərinə uyğun olaraq proqramlar, planlar, tədbirlər hazırlayıb həyata keçirmək;

4.1.2. Qalereyanın fəaliyyəti ilə bağlı normativ hüquqi aktların layihələrini hazırlamaq və (və ya) onların hazırlanmasında iştirak etmək;

4.1.3. müvafiq beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti qurumları ilə əməkdaşlıq etmək, müvafiq beynəlxalq ittifaqlar və assosiasiyalara üzv olmaq, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

4.1.4. Qalereyanın fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, araşdırma, elmi tədqiqat və təbliğat işlərini həyata keçirmək;

4.1.5. Qalereyanın fəaliyyət istiqamətlərinə uyğun müxtəlif mükafatlar təsis etmək;

4.1.6. Qalereyanın fəaliyyət istiqamətlərinə uyğun olaraq mədəniyyət tədbirlərini təşkil etmək, istedadlı uşaq, yeniyetmə və gəncləri aşkarlamaq, gənc rəssamların əsərlərinin xarici ölkələrdə sərgilərinin təşkili və onların yaradıcılığının təbliğini həyata keçirmək.

4.1.7. qanunverciliyə uyğun olaraq sərgi və digər tədbirlərə bilet satışını təşkil etmək;

4.1.8. təsviri və dekorativ-tətbiqi sənət dərnəkləri təşkil etmək;

4.1.9. Qalereyanın vəzifələrinin yerinə yetirilməsi və hüquqlarının həyata keçirilməsi məqsədilə qrantlar, ianələr və digər əvəzsiz köçürmələri almaq, qrantlar, ianələr və təqaüdlər təsis etmək;

4.1.10. Qalereyanın fəaliyyət istiqamətləri üzrə digər şəxslər tərəfindən göstərilən xidmətləri və müxtəlif tədbirləri maliyyələşdirmək, maddi-texniki və təşkilati cəhətdən dəstəkləmək;

4.1.11. Qalereyanın fəaliyyətinə aid olan məsələlərə dair müstəqil ekspertləri və mütəxəssisləri cəlb etmək;

4.1.12. Qalereyanın fəaliyyət istiqamətlərinə aid olan məsələlər barədə məlumatları (sənədləri) əldə etmək üçün dövlət və yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) əldə etmək;

## 4. Qalereyanın fəaliyyətinin təşkili

4.1. Qalereyaya Nazirliklə yazılı razılaşdırılmaqla İdarənin əmri ilə vəzifəyə təyin və vəzifədən azad edilən direktor rəhbərlik edir.
4.2. Direktor:
4.2.1. Qalereyanın işini təşkil edir və onun fəaliyyətinə şəxsən məsuliyyət daşıyır;
4.2.2. Qalereyanın iş planını, hesabatını hazırlayır və İdarəyə təqdim edir;
4.2.3. Qalereyanın işçiləri arasında vəzifə və səlahiyyət bölgüsünü aparır;
4.2.4. Qalereyanın sərəncamına verilmiş maddi-texniki təminat vasitələrini işçilərin vəzifə bölgüsünə uyğun paylaşdırır;
4.2.5. Öz səlahiyyətləri daxilində əmr və göstərişlər verir;
4.2.6. Qalereyanın kargüzarlıq işinin aparılmasını təşkil edir;
4.2.7. Qalereyada olan bütün əsərlərin qorunmasını təmin edir və buna görə məsuliyyət daşıyır;
4.2.8. Müvafiq sahə üzrə dövlət və yerli özünüidarə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu verir və onlardan belə məlumatları (sənədləri) alır;
4.2.9. Qanunvericilikdə nəzərdə tutulmuş digər hüquq və vəzifələri həyata keçirir.
4.3. Qalereyanın fondunda iki ildən bir inventarlaşma işi aparılır və nəticəsi barədə İdarəyə rəsmi məlumat verilir.
4.4. Qalereyanın baş fond mühafizi Nazirliklə yazılı razılaşdırılmaqla İdarə tərəfindən vəzifəyə təyin və vəzifədən azad olunur.
4.5. İdarənin nomenklaturasına daxil olmayan işçilər əmək qanunvericiliyinə və mövcud qaydalara əsasə İdarənin rəhbərliyi ilə razılaşdırılaraq qalereyanın direktoru tərəfindən işə qəbul və işdən azad edilir, mükafatlandırılır və intizam məsuliyyətinə cəlb olunurlar.
4.6. Qalereyanın strukturu və ştat cədvəli Nazirlik tərəfindən təsdiq edilir.

## 5. Qalereyanın maliyyə və təsərrüfat fəaliyyəti

5.1. Qalereya dövlət mədəniyyət sisteminin tərkib hissəsi kimi büdcə təşkilatıdır və dövlət büdcəsindən maliyyələşdirilir;
5.2. Qalereyaya müvafiq qanunvericiliyə uyğun büdcədənkənar vəsaitlər, qrantlar, hüquqi və fiziki şəxslərdən ianələr, digər fəaliyyətdən vəsaitlər daxil ola bilər;
5.3. Qalereya müəyyən olunmuş qaydalar əsasında maliyyə və statistik qeydiyyat aparır, İdarəyə və müvafiq dövlət orqanlarına hesabat və məlumatlar təqdim edir.

## 6. Digər şərtlər

6.1. Qalereyanın ümumi fəaliyyəti Nazirlik və İdarə, maliyyə-təsərrüfat fəaliyyəti qanunvericiliyə uyğun müvafiq orqanlar tərəfindən yoxlanılır.
6.2. Qalereya qanunvericiliyə uyğun qaydada ləğv və yenidən təşkil edilə bilər.
6.3. Qalereyanın fəaliyyəti ilə əlaqədar olan, lakin bu Əsasnamə ilə tənzimlənməyən məsələlər Azərbaycan Respublikasının qanunvericiliyi və Nazirliyin normativ hüquqi aktları ilə tənzimlənir.